# Müdrikliyin və qətiyyətin qələbəsi



*15 iyun - Milli Qurtuluş Günü xalqımızın yaddaşından heç vaxt silinməyəcək tarixi bir gündür. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyununda ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı kimi tariximizə düşən bu gün ölkəmizin müstəqil dövlət kimi inkişafının başlanğıcını qoydu. Xalqımız hər il Azərbaycan tarixində ən əlamətdar hadisələrdən biri olan bu günü böyük təntənə ilə qeyd edir. Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan bu tarix Azərbaycan dövləti yaşadıqca, yaddaşlarda əbədi qalacaq.*

1991-ci ilin oktyabrında müstəqilliyini bərpa etmiş respublikamızda 1993-cü ilin iyununa qədər böhran, xaos, anarxiya hökm sürmüş, mövcud durum son dərəcə kəskinləşmişdi. Belə ağır və çıxılmaz vəziyyətdə Azərbaycanın əsl xilaskara ehtiyacı vardı. Hamıya gün kimi aydın idi ki, ovaxtkı iqtidar ölkəni düşdüyü iflic vəziyyətdən çıxara bilməyəcəklər. Belə ağır durumda xalq öz fədakar oğlu Heydər Əliyevə müraciət etdi. Xalqımız yaxşı bilirdi ki, belə bir anda yalnız və yalnız Heydər Əliyev dühası milləti düşdüyü bəlalardan qurtara bilər. Xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyinin nicatı üçün Heydər Əliyevi təkidlə Naxçıvandan Bakıya dəvət etdi. Dövlət müstəqilliyimizin bərpasından sonra ötən illərə nəzər saldıqda bir daha əminliklə söyləmək olar ki, tarixin millətə verdiyi şansı yalnız görkəmli şəxsiyyətlərin rəhbərliyi ilə reallaşdırmaq mümkündür. Belə dahi şəxsiyyətlər nadir hallarda yetişir və bu dühalar özləri tarix yaradırlar. Azərbaycan xalqının böyük və dahi oğlu, dünyaşöhrətli siyasətçi Heydər Əliyev məhz tarix yaradan görkəmli şəxsiyyət idi. Xalqın çağırışına, taleyinə heç vaxt biganə olmayan ulu öndər 1993-cü il iyunun 9-da respublika paytaxtına gəldi və iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi. Heydər Əliyevin ölkə rəhbərliyinə bu qayıdışı siyasi-iqtisadi böhran məngənəsində boğulan Azərbaycanı fəlakətdən xilas etdi. Ulu öndər ölkədə tüğyan edən hərc-mərclik, vətəndaş müharibəsi, qeyri-qanuni fəaliyyət göstərən silahlı dəstələrin qarşısının alınması üçün həyatını böyük təhlükə altına ataraq, kəskin və qəti mübarizəyə başladı. Qısa zaman kəsiyində bu neqativ ünsürlərin özbaşınalığının qarşısını birdəfəlik aldı, qanunsuz silahlı dəstələr tərk-silah edildi. Azərbaycan parçalanıb məhv olmaq təhlükəsindən xilas oldu. Bu, qətiyyətli, cəsarətli Vətən oğlunun öz milləti, doğma Vətəni qarşısındakı misilsiz fədakarlığı idi. Həmin tarixi dövr xalqımızın taleyində dönüş anı, itirilmiş inamın qaytarılması, anarxiyadan sabitliyə, inkişafa doğru yeni bir mərhələ oldu. Azərbaycan Prezidenti cənab İlham Əliyev həmin dövrü belə xarakterizə etmişdir: "Müstəqilliyimizin ilk illərindəki hərc-mərclik və xalqımızın maraqlarına zidd siyasət, iqtisadiyyatın zəiflədilməsi və milli sərvətlərin talan edilməsi dərin siyasi və iqtisadi-sosial böhranla nəticələndi. 1993-cü ilin iyun ayından ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoyuldu və Heydər Əliyevin dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı".

Azərbaycanı həmişə müstəqil, inkişaf etmiş dünya dövlətləri sırasında görmək istəyən Heydər Əliyev demişdir: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək".

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli sərvətlərimizdən ölkənin və xalqın mənafeyinə uyğun surətdə istifadə olunmasında ulu öndər Heydər Əliyevin neft strategiyası mühüm əhəmiyyət kəsb etmişdir. Böyük dövlətlərin iri neft şirkətləri ilə 20 sentyabr 1994-cü il tarixdə imzalanmış "Əsrin müqaviləsi" və 18 noyabr 1999-cu ildə ATƏT-in İstanbul Zirvə Toplantısında Bakı-Tbilisi-Ceyhan Əsas Neft İxrac Boru Kəmərinin inşa olunmasına dair bağlanmış saziş müstəqil Azərbaycanın iqtisadi inkişafında müstəsna rol oynadı. Son illərdə isə biz görürük ki, bölgədə beynəlxalq əhəmiyyətə malik infrastruktur layihələrinin təşəbbüskarı və təşkilatçısı məhz Azərbaycandır. 2017-ci ilin oktyabrında Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ölkəmizin əldə etdiyi tarixi nailiyyətdir. Bundan başqa, "Şimal-Cənub", "Cənub-Qərb" nəqliyyat dəhlizlərinin tikintisi də sürətlə aparılır ki, burada da əsas təşəbbüskar məhz dövlətimizdir. Bu dəhlizlərin istifadəyə verilməsi ilə ölkəmiz həm regionda, həm də dünyada böyük nəqliyyat mərkəzlərindən birinə çevriləcək.

Ulu öndər hakimiyyətə qayıtdığı ilk gündən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu məsələsini daim diqqət mərkəzində saxlamış, bu istiqamətdə mühüm islahatların reallaşdırılmasını təmin etmişdir. Heydər Əliyev böyük siyasətçi kimi hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı olmuşdur. Ümummilli liderin rəhbərliyi ilə hazırlanaraq, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Müstəqil Azərbaycanın Parlamentinə 1995-ci ildə keçirilən ilk seçkilər dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır. Azərbaycanda 1995-ci ildən başlayaraq aparılan hüquqi islahatlar respublikada sabitliyin və inkişafın təməl prinsiplərini müəyyən etmişdir. Heydər Əliyev ölkəmizin gələcək inkişaf istiqamətlərindən danışarkən demişdir: "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkə qarşısında duran mühüm vəzifələrdən biri də milli mənafelərə əsaslanan xarici siyasət kursunun müəyyən edilərək həyata keçirilməsi idi. Ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün səmərəli, praqmatik xarici siyasət kursunu dünyanın bir çox aparıcı dövlətləri ilə qarşılıqlı hörmət və əməkdaşlıq prinsipləri əsasında qurmaq zərurəti yaranmışdı. Düşünülmüş xarici siyasət - hər bir dövlətin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsində, ikitərəfli və çoxtərəfli münasibətlərin gücləndirilməsində, mövcud problemlərin həllində mühüm amillərdəndir. Ümummilli lider Heydər Əliyev də fəaliyyətinin ilk günlərindən Azərbaycanın xarici siyasətini və ölkənin strateji maraqları əsasında bu istiqaməti yenidən qurdu. Ulu öndər ilk növbədə, keçmiş səriştəsiz hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycanın ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin mənafeyi ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Heydər Əliyevin balanslaşdırılmış xarici siyasəti sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirdi, ölkəmiz Cənubi Qafqazın aparıcı dövlətinə çevrildi. Dahi öndərin xarici ölkələrə çoxsaylı səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini verdi. Ümummilli liderin apardığı ardıcıl və məqsədyönlü siyasət sayəsində beynəlxalq aləmdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktının tanınması və ermənilərin işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti apararaq separatçı qurum yaratmaq cəhdi təsdiqləndi. Bu məsələ BMT Baş Məclisinin sessiyasının gündəliyinə salındı, dünyanın ən nüfuzlu təşkilatlarda Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsini bəyan edən qətnamə qəbul olundu. Qətnamədə erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması, bu ərazilərdən qovulmuş, didərgin düşmüş əhalinin öz doğma yurdlarına qayıtması xüsusi vurğulanırdı. ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə ermənilərin qeyri-qanuni surətdə məskunlaşdırılmasını etiraf etməsi və bütün bunlar təcavüzkar erməni siyasətinin ifşası istiqamətində qazanılan çox mühüm diplomatik nailiyyət idi. Ulu öndərin siyasi kursu nəticəsində dövlət müstəqilliyimiz qorundu və möhkəmləndirildi, ölkənin təhlükəsizliyi, milli dövlətçilik hüquqları təmin edildi. Bu prioritetlər indi Azərbaycanın xarici siyasətində həlledici rola malikdir. İnamla deyə bilərik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət məhz bu əsaslar üzərində qurulub, ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri daha da möhkəmlənib, bütün bunlar isə diplomatik reallıqlar fonunda respublikamızın imicini xeyli yüksəldib. Azərbaycan bu gün müstəqil dövlət kimi nüfuzlu beynəlxalq təşkilatlarda özünün maraq və mənafeyini maksimum dərəcədə təmin edir.

Dahi Heydər Əliyevin Azərbaycanda hakimiyyətə yenidən qayıdışından sonra respublikamızın bütün sahələrdə olduğu kimi, din sahəsində də bir sıra müsbət addımlar atıldı. Etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və dini məbədlərimizin bərpası istiqamətində məqsədyönlü tədbirlər həyata keçirildi. Uzun illərdən bəri fəaliyyətsiz qalan ibadət ocaqları bərpa edildi və yeni məscidlər inşa olundu və ya əsaslı təmir edildi. Məhz Heydər Əliyevin bu sahəyə diqqəti nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasına dini etiqad azadlığı ilə bağlı mühüm maddələr əlavə olundu. Konstitusiyada ölkəmizdə fəaliyyət göstərən bütün dini icmaların, dinlərin bərabərhüquqlu, vətəndaşların etiqad azadlığı ön plana çəkildi. Bütün bu məsələlər 1996-1997-ci illərdə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa edilən dəyişikliklərdə özünü göstərdi. Beləliklə, dövlət-din münasibətlərində yeni mərhələnin əsası qoyuldu, dövlətin din sahəsinə diqqət və qayğısı artdı. Dini etiqad azadlığının təmin olunmasında dini dözümlülük ənənələrinin möhkəmləndirilməsində mədəniyyətlərarası dialoq və dinlərarası əməkdaşlıq xüsusi rol oynayır. Heydər Əliyev bütün dinlərin dəyərlərinə hörmətlə yanaşır, tolerantlıq ənənələrini möhkəmləndirir, dini ədavət və düşmənçilik çağırışlarının qarşısını alır, xalqlar, dinlər və sivilizasiyalararası dialoqun və əməkdaşlığın gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirirdi. Ulu öndər mütəmadi olaraq digər dini konfessiyaların rəhbərlərini qəbul edir, müxtəlif tədbirlərdə onlarla görüşür, fikir mübadiləsi aparırdı. Dahi şəxsiyyətin dini fəaliyyət sahəsində həyata keçirdiyi ən böyük xidmətlərdən biri də - 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması olmuşdur. Dövlət Komitəsi yaradıldıqdan sonra ölkədə dövlət-din münasibətlərində yeni mərhələ başlandı və bu dövrdən etibarən, dini etiqad azadlığının təmin olunmasına, dini icmaların ayin və mərasimləri sərbəst yerinə yetirməsinə, milli-mənəvi dəyərlərin təbliğinə və tolerantlıq ənənələrinin gücləndirilməsinə diqqət daha da artırıldı. Ulu öndərin başladığı bu işi hazırda Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva uğurla davam etdirir, ölkəmizdə yeni-yeni məscidlər, kilsə və sinaqoqlar tikilir, dini təhsil ocaqları yaradılır.

Dahi lider Heydər Əliyevin xalqı qarşısında ən böyük xidmətlərindən biri də özündən sonra onun iqtisadi-siyasi kursunu davam etdirə biləcək layiqli varis yetişdirməsidir. O, 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu gün qürur hissi ilə deyə bilərik ki, dahi Heydər Əliyevin cənab İlham Əliyevə bəslədiyi ümidlər özünü doğruldur. Böyük səs çoxluğu ilə 2003-cü ildə Azərbaycan Prezidenti seçilən İlham Əliyev ötən 21 il ərzində ulu öndərin təməlini qoyduğu siyasi-iqtisadi kursu qloballaşan dünyanın tələblərinə uyğun olaraq inam və ardıcıllıqla davam etdirir. Onun rəhbərliyi ilə Azərbaycan dünyada böyük nüfuza, iqtisadi gücə malik ölkə kimi tanınır. Ölkəmiz iqtisadi artım tempinə görə dünya ölkələri sırasında lider mövqedədir. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam!", - deyən cənab İlham Əliyev doğrudan da hər bir azərbaycanlının Prezidenti oldu. Bu gün fəxrlə qeyd edirik ki, Azərbaycanda cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş uğurların miqyası olduqca böyükdür.

**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı.**